

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 129 (23.291)

*14 iyul 2019-cu il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 50 illiyi qeyd olunub





İyulun 13-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: 14 iyul 2019-cu ildə Azərbaycan xalqının dünyaya bəxş etdiyi qüdrətli şəxsiyyət, böyük dövlət xadimi, xilaskar və qurucu lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyi tamam olur. ***“Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır”***, – deyən ümummilli lider Heydər Əliyevin ən böyük xoşbəxtliyi onun adının müstəqil Azərbaycan dövləti ilə birgə çəkilməsi, qüdrətli şəxsiyyət kimi Azərbaycan xalqının taleyinə qurtuluş tarixini yazmasıdır. Ulu öndərin azərbaycanlı olmağı ilə fəxr edərək sonsuz iftixar və qürur hissi ilə səsləndirdiyi ***“Azərbaycan mənim qibləgahımdır!”*** fikrini dahi ömrünün manifesti hesab etmək olar. O manifestin hansı səhifəsini çevirsək, orada Azərbaycan naminə sonsuz fədakarlıqlar göstərən, həyatını Azərbaycana həsr edən, müstəqil Azərbaycan uğrunda öz canından keçməyə hazır olan dahi bir şəxsiyyət, görkəmli dövlət xadiminin tale yolunu görərik.



Ali Məclisin Sədri demişdir: 1969-cu il iyulun 14-də hakimiyyətə gələn 46 yaşlı dövlət təhlükəsizlik orqanı generalı və güclü siyasi iradə sahibi olan möhtərəm Heydər Əliyev Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorumalı, heç bir əsas olmadan tarixi torpaqlarımızın Ermənistana güzəştə gedilməsinin qarşısını almalı, iqtisadiyyatı dirçəltməli, sosial ədalətsizliyi aradan qaldırmalı, bir sözlə, xalqı yaşatmalı idi. Bununla yanaşı, təhsil, mədəniyyət və sosial sahədə də öz həllini gözləyən ciddi problemlər yığılıb qalmışdı. Ulu öndərimizin Azərbaycan naminə fəaliyyətinin bu mərhələsi qeyd olunan problemlərin qısa müddətdə aradan qaldırılmasına, dərin köklərə və qədim mədəniyyətə malik olan xalqın tarixi yaddaşının, torpağa sahiblik hissinin bərpasına, bununla birlikdə Azərbaycanın özünə qayıdışına hesablanmışdı. 50 il bundan əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu, inkişafın milli intibaha yönəldilməsi modeli Azərbaycana yeni həyat bəxş etdi. Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əlavəsindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən məhsuldar fəaliyyət Heydər Əliyev quruculuq xəttinin siyasi əsasını təşkil edirdi. Ümummilli lider o illəri xatırlayarkən deyirdi: ***“1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır”.***

Alman filosofu Hegelin belə bir məşhur kəlamı var: ***“Sürətlə iflasa yaxınlaşan xalqların taleyi yalnız dahilər tərəfindən xilas oluna bilər”.*** Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası idi. Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Xalqımızın müdrik rəhbəri bu dövlətçilik konsepsiyasını belə dəyərləndirirdi: ***“Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir”.***

Ali Məclisin Sədri demişdir: Ulu öndərimiz güclü, müstəqil Azərbaycan dövləti yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edə biləcək lideri, rəhbəri də yetişdirmişdir. 2003-cü ilin oktyabrında ümummilli liderimizin ***“Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”***, – deyə özünün layiqli davamçısı kimi təqdim etdiyi hörmətli İlham Əliyev ulu öndərin strategiyasını uğurla davam etdirir, bu strategiyanı yeni dövrün ruhuna uyğun olaraq zənginləşdirir. 50 il bundan əvvəl ümummilli liderimizin keçmiş Sovetlər Birliyinin geridə qalmış aqrar ölkəsindən ittifaq dövlətinin inkişaf etmiş respublikaları sırasına çıxartdığı Azərbaycan, bu gün regionun lider dövlətidir. Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları Heydər Əliyev siyasətinin məntiqi nəticəsidir.



“Dahi öndər Heydər Əliyev Yeni Azərbaycanın bugünkü simasını və gələcək inkişaf perspektivlərini müəyyənləşdirib. Onun Azərbaycan naminə gördüyü işlər bu gün ölkəmizin milli sərhədlərini aşaraq bütövlükdə regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülüb, lakin onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının ümummilli lideri adını qazanmasıdır. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır!”, – deyən Ali Məclisin Sədri çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır!”***

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Müstəqil və qüdrətli Azərbaycan naminə – 50 il” filmi nümayiş olunmuşdur.

Tədbirdə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının və medallarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimatı olmuşdur.

Ali Məclisin Sədri “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalını, Azərbaycan Respublikasının “Əməkdar mədəniyyət işçisi”, “Əməkdar artisti”, “Əməkdar həkimi” və “Əməkdar tibb işçisi” fəxri adlarının döş nişanlarını və vəsiqələrini, eləcə də “Tərəqqi”, “Dövlət qulluğunda fərqlənməyə görə”, “Vətən uğrunda”, “İgidliyə görə” və “Hərbi xidmətlərə görə” medallarını, gənc istedadlara xüsusi aylıq təqaüdü təqdim etmiş, təltif olunanlarla və gənclərlə xatirə şəkli çəkdirmişdir.

Azərbaycan Respublikasının “Əməkdar mədəniyyət işçisi” fəxri adı və “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalı ilə təltif olunmuş Asim Əliyev minnətdarlıq edərək demişdir: Bu, bir həqiqətdir ki, təkcə iqtisadiyyatın inkişafı ilə dövlət idarə olunmur. Dövlətin idarə olunmasında güclü hakimiyyət və

*Ardı 2-ci səhifədə*

qətiyyətli lider amili əsas şərtdir. 50 il bundan əvvəl Azərbaycana rəhbər seçilən ulu öndərimiz Heydər Əliyev güclü dövlət yaratmışdır. Bu gün fəxr edirik ki, müstəqil və qüdrətli Azərbaycan dünya dövlətləri içərisində öz layiqli yerini tutub. Mən həm Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi", həm də yubiley medalı ilə təltif olunduğum üçün ölkə Prezidentinə dərin minnətdarlıq edirəm. Şair, ictimai xadim, ziyalı kimi həyatda qazandığım bütün uğurların təməlində ulu öndər Heydər Əliyevin imzası dayanır. Heydər Əliyev yolu Azərbaycanı, doğma Naxçıvanı böyük inkişafa qovuşdurub. Bu gün muxtar respublikada digər sahələr kimi, yaradıcı təşkilatlara da qayğı göstərilir, onların maddi-texniki bazaları gücləndirilir. Ali Məclis Sədrinin 2019-cu il 20 may tarixli Sərəncamı ilə muxtar respublikanın yaradıcılıq təşkilatlarına, o cümlədən Yazıçılar Birliyinə maddi vəsaitin ayrılması bunu bir daha təsdiq edir. Təbii ki, yaradılan şərait, göstərilən qayğının bir səbəbi vardır: o da Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilən Heydər Əliyev siyasi xəttidir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı ilə təltif olunanlardan Əlövsət Baxşıyev, Kərəm Mustafayev, Ülkər Bayramova, İsmayıl Hacıyev, Sahil Tahirli, Ramilə Seyidova, Bəxtiyar Əsgərov, Əli Quliyev, Saleh Məhərrəmov, Elbrus İsayev, Aidə Allahverdiyeva, Hüseyn Niftəliyev, Yaşar Xəlilov, Firudin Süleymanov, Tofiq Abutalıbov, Vəli Baxşəliyev və Şirzad




Abutalıbov da göstərilən yüksək etimada görə minnətdarlıq etmişlər.

Şirzad Abutalıbov demişdir: Naxçıvanda yaşamaq da, işləmək də çox rahatdır. Mən 16 yaşımdan etibarən Naxçıvan teatrında fəaliyyət göstərirəm. Bu gün Naxçıvan teatrı inkişaf edir. Yaradıcılıq imkanlarının genişləndirilməsi, sənət adamlarının hərtərəfli diqqət və qayğı ilə əhatə olunmasını hər zaman hiss edirik. Dövlət qayğısı, yaradılan şərait daha da səmərəli işləməyə imkan verir. Fəxr edirik ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan siyasi xətt bu gün ölkəmizi, doğma Naxçıvanımızı daha böyük zirvələrə aparır.

Azərbaycan Respublikasının medalları ilə təltif olunanlardan Fikrət Əhmədov, Rauf Cəfərov, Fəxrəddin Məmmədov, Məcid Seyidov, Ülvi Hüseynli və Mehman Gülməmmədov da minnətdarlıqlarını bildirmiş, bundan sonra daha səylə çalışacaqlarına və göstərilən etimadı doğruldacaqlarına söz vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə idman sahəsi üzrə Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi Rafiq Hüseynlinin, təhsil sahəsi üzrə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Siyavuş Bağırovun və incəsənət sahəsi üzrə Culfa şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Duyqu Əliyevanın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılmış və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Ali Məclisin Sədri təqaüd kartlarını gənc istedadlara təqdim etmişdir.

Təqaüdçü gənc Siyavuş Bağırov minnətdarlıq edərək demişdir: "Ali Məclis Sədrinin Sərəncamı ilə muxtar respublikada xüsusi istedada malik 3 gəncin adının Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınması və onların aylıq təqaüdə layiq görülməsi muxtar respublikada təhsilə göstərilən diqqətin bariz nümunəsidir. Əgər 1970-1980-ci illərdə Azərbaycan keçmiş SSRİ tərkibində təhsil sahəsi üzrə ön sıralarda idisə, hazırda Naxçıvan Muxtar Respublikası da təhsilin inkişafı sahəsində Qafqazda ilk yerlərdədir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyası muxtar respublikada uğurla davam etdirilir. Söz verirəm ki, üzərimə düşən məsuliyyəti dərindən dərk edəcək, yaradılan şəraitdən istifadə edərək yüksək nəticə ilə ali məktəbə qəbul olacağam". Siyavuş Bağırov muxtar respublika gəncləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

# 14 iyul 1969-cu il: Tərəqqi yolunun başlanğıcı, müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün

*Bu gün ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsinin 50 ili tamam olur*

***Ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri vardır. Bu mənada, ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaratmışdır. Buna görə də ümummilli liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə özünəməxsus yerə malikdir.***

Türk dünyasının böyük oğlunun dövlət xadimi kimi formalaşmasında ötən əsrin 50-60-cı illəri həlledici rol oynamışdır. Məhz bu illərdə vəzifə pillələrində yüksəlişi Ona imkan verirdi ki, sovet dövlətçiliyinin mahiyyətinə dərindən bələd olsun. Həmin illərdə milli kadrlar heç nəyi həll edə bilmirdi, dövlət təhlükəsizliyi orqanlarında isə vəziyyət, sadəcə olaraq, milli mənafelər baxımından faciəli idi. Dahi şəxsiyyət Heydər Əliyev müəyyən taktiki addımlarla mənsub olduğu xalq üçün strateji planları həyata keçirməyə çalışırdı. Bunlardan birincisi isə xalqı özünə tanıtdırmaq, onun etnokulturoloji həyatını bərpa etmək idi. Böyük şəxsiyyət həmin dövrdə bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu aradan qaldırmış, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırmışdır. Hər bir Azərbaycan vətəndaşına belə bir inam aşılanmışdı ki, bu xalq nə vaxtsa öz azadlığına qovuşacaq. Ulu öndərimiz Azərbaycan xalqının şüurunda məhz bu inqilabi dəyişikliyi yaratmışdı. Bu baxımdan inamla demək olar ki, görkəmli dövlət xadiminin ölkəmizə rəhbərliyinin birinci dövrü, eyni zamanda milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıc dövrüdür. Onun bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı.

Müstəqilliyi əldə etmək üçün isə möhkəm təməl, iqtisadi inkişaf lazım idi. Buna görə də 1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi ulu öndərimizin siyasi xəttinin əsasını təşkil edirdi. Həmin illərdə isə iqtisadi vəziyyət acınacaqlı idi. Belə ki, ötən əsrin 60-cı illərində ölkəmiz iqtisadi vəziyyətinə görə keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Sənaye və kənd təsərrüfatı sahələrinin günün tələblərinə cavab verməməsi əhalinin güzəranının getdikcə pisləşməsi ilə nəticələnmişdi. 1969-cu ildə Sovetlər Birliyində ümumi məhsulun həcmi 1965-ci ilə nisbətən 43 faiz çoxaldığı halda, Azərbaycanda bu artım cəmi 29 faiz olmuşdu. Baxmayaraq ki, ölkəmizin imkanları yetərincə idi, ancaq təbii sərvətlərimiz digər müttəfiq respublikaların inkişafına yönəldilir, Azərbaycan isə məhvə sürüklənirdi. Nəticədə, ötən əsrin 50-ci illərindən sonra SSRİ-də başlanan sənayeləşmə Azərbaycandan yan keçir, ölkədə işsizlərin sayı artır, gənc əhalinin bir qismi iş dalınca ittifaqın müxtəlif şəhərlərinə üz tuturdu.

Ulu öndərimizin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdı. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdi. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi. Azərbaycanda gedən prosesləri analiz edən istənilən siyasi ekspert qeyd edir ki, həmin illərdə ölkə birmənalı şəkildə bütün istiqamətləri üzrə müstəqilliyə hazırlanırdı. Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: ***"Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur".***

Faktdır ki, 1969-cu ilədək bir çox mühüm infrastruktur layihələri bilərəkdən Azərbaycanda yaradılmırdı. 1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə bir milyard ton neft istehsal etmiş, İkinci Dünya müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Bu məqamdan məharətlə istifadə edən ulu öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, çox sayda yenisinin tikilməsinə nail olmuşdu. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

Ümummilli liderimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***"Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi".***

Azərbaycan xalqının böyük oğlu 1969-1982-ci illər müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirmişdir. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılmış, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdır. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər. Buradan da göründüyü kimi, XX əsrin 70-80-ci illərində ulu öndərimizin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdır.

Ümummilli lider Heydər Əliyev milli kimliyimizi yaşadan ana dilimizin inkişafını da xüsusi diqqət mərkəzində saxlamış, Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət haqqı və milli özünüdərk gətirmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün SSRİ məkanında rus dili hakim və rəsmi dil idi. Xalqımızın böyük oğlu tarixdə misligörünməmiş cəsarət, siyasi müdriklik nümayiş etdirmiş, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirmişdir. Dahi rəhbər yüksək səviyyəli digər yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazanmışdı. 1978-ci il aprel ayının 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə Konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: ***"Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".*** Həmin dövrdə belə bir maddənin əlavə edilməsi çox böyük risk idi. Hər an ulu öndərə millətçi damğası vurmaq təhlükəsi yaranmışdı. Ancaq müdrik şəxsiyyət bütün bunlardan qorxmamış, Onun ana dilinə olan məhəbbəti, milli təəssübkeşliyi hər şeyi üstələmişdi.

Ulu öndər ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdə respublika gənclərinin bilavasitə Bakıda hərbi təhsil alması üçün o zamanlar mümkün olan bütün addımları atmış, imperiya rəhbərlərinin etirazına baxmayaraq, Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail olmuşdu. Həmin dövrdə bu məktəbin yaradılması Azərbaycanda milli hərbçi kadrların yetişdirilməsinə çox böyük töhfə idi. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş Sovetlər Birliyində mövcud olan qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara

*Ardı 3-cü səhifədə*

təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri idi. 1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif respublikalarında yerləşən 54 ən qabaqcıl ali hərbi məktəbə və akademiyalara hərbi təhsil almağa göndərilmiş, milli kadrların hazırlanması problemi öz uğurlu həllini tapmışdır. Ümummilli liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

Ulu öndərimiz Heydər Əliyevin həmin dövrdə Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqət çəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".***

Naxçıvan Muxtar Respublikası da ötən əsrin 70-ci illərində görülən məqsədyönlü işlər nəticəsində sürətlə inkişaf etməyə başlamışdır. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olmuşdur. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmişdir. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə artmışdır.

Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Ulu öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına həyat ritmini qoruyub saxlaya bilmişdir.

1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindəki siyasi fəaliyyəti ulu öndər Heydər Əliyev şəxsiyyətinin Sovetlər Birliyi miqyasında bir daha təsdiq olunduğu, Azərbaycanın dünya səviyyəsində tanıdıldığı dövrdür. Azərbaycanı həmin illərdə də diqqətdən kənarda qoymayan ümummilli liderimiz bütün imkan və bacarığını respublikamızın tərəqqisi və inkişafına yönəltmişdi. Nəticədə, görkəmli dövlət xadimi Heydər Əliyevə görə keçmiş Sovetlər Birliyində ittifaq dövlətləri Azərbaycanla hesablaşır, ölkəmizdəki inkişafın qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Təsadüfi deyil ki, Azərbaycanı parçalamaq istəyənlər yeganə çıxış yolunu ulu öndəri siyasi fəaliyyətdən kənarlaşdırmaqda görürdülər. Nəhayət, 1987-ci ildə bu məkrli plan həyata keçirildi, ümummilli liderimiz rəhbər vəzifədən uzaqlaşdırıldı. Elə Azərbaycanın dəhşətli, faciəli günləri də bundan sonra başlandı. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal edildi, 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Lakin yenə də ulu öndər xalqının səsinə səs verdi, siyasi təqiblərə baxmayaraq, Azərbaycan uğrunda mübarizəyə qayıtdı, 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını cəsarətlə ittiham etdi, xalqımızın başına gətirilən bu müsibəti bütün dünyaya çatdırdı.

1990-cı il iyulun 20-də ümummilli liderimiz Bakıya gəldi. İki gün sonra – iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ulu öndər 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahi şəxsiyyətin Naxçıvandan başladığı müstəqillik yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi. Üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası çox böyük uzaqgörənliklə yekdillik nümunəsi göstərərək görkəmli dövlət xadimi Heydər Əliyevi Ali Məclisin Sədri seçdi. Naxçıvanlıların bu müdrik seçimi muxtar respublikanı real işğaldan və qaçqın həyatı yaşamaq təhlükəsindən xilas etdi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvandan başlandı, bir sözlə, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı. Ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində xalq-lider birliyinin nələrə qadir olduğunu bir daha təsdiq etdi.

Naxçıvanda dövlət quruculuğu prosesinin getdiyi həmin dövrdə ölkəmiz hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Azərbaycana "rəhbərlik edənlər" ölkənin və xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdürdülər. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana – ümummilli liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Azərbaycan yenidən əsası 1969-cu ildən başlanan inkişaf yoluna qayıtdı.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürmüş, eyni zamanda bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Onun dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli olmuşdur. Dahi şəxsiyyət o zaman qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: ***"Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".***

Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur.

Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan Azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir.

Ulu öndərimizin nəsillərə nümunə olan həyat yolu xalqa təmənnasız xidmətdə keçmişdir. İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşü zamanı dediyi kimi: ***"...Tarixdə elə şəxsiyyətlər var ki, onların həyat yolundan danışmaq üçün bütöv bir xalqın, bütöv bir ölkənin tarixindən danışmaq lazımdır. Möhtərəm Heydər Əliyev belə şəxsiyyətlərdəndir. Onun mənalı həyatı müstəqil Azərbaycanın siyasi bioqrafiyasına çevrilmişdir. Bu gün Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən Azərbaycan düşünürük. Bu, səbəbsiz deyil. Azərbaycanın 50 ilə yaxın bir dövrünü əhatə edən tarixi və siyasi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır".***

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında yeni nailiyyətlər qazanır.

*1969-cu ilin 14 iyulu tarixə Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi düşmüşdür. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də və dünyada tanıtmış, həm də milli varlığımızı qoruyub saxlamışdır. O illərin rəşadəti və şöhrəti XX əsr tariximizə qızıl hərflərlə yazılmışdır. Buna görə də 14 iyul tarixi xalqımızın qəlbində həm də milliliyin, Azərbaycançılığın, tarix səhifəsində milli dövlətçiliyimizin əbədi mövcudiyyət günü kimi qəbul edilir.*

**"Şərq qapısı"**

## "Kanal 35" televiziyasının 15 illiyi qeyd olunmuşdur

***İyulun 13-də Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində "Kanal 35" televiziyasının yaradılmasının 15 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov açmışdır.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə mətbuata qayğı ilə yanaşmış, kütləvi informasiya vasitələrinin yaradıcılıq imkanları xeyli artırılmışdır. Ötən əsrin 70-ci illərində sovet rejiminin sərt qadağalarına və senzuranın olmasına baxmayaraq, ulu öndərin milliləşdirmə siyasəti, milli özünüdərkə qayıdış sahəsində həyata keçirdiyi tədbirlər mətbuatı da əhatə etmiş, teleradio və mətbuatda Azərbaycan dilinin istifadə imkanları genişləndirilmiş, xalqımızın milli dəyərlərinin təbliğinə diqqət artırılmışdır. Ulu öndər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycanda müstəqil mətbuat formalaşmış, senzura ləğv edilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır.

Qeyd olunmuşdur ki, bu gün ölkə Prezidentinin diqqət və qayğısı ilə teleradio və qəzetlərin fəaliyyət istiqamətləri xeyli genişləndirilmişdir. Naxçıvan Muxtar Respublikasında da medianın inkişafı yeni dövrün çağırışları nəzərə alınaraq həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov teleradio və qəzetlərin fəaliyyətini daim diqqətdə saxlayır, onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində kompleks tədbirlər görülür. Muxtar respublika teleradioları dünyada bu sahədə tətbiq olunan ən müasir maddi-texniki bazaya, o cümlədən yayım avadanlıqlarına malikdir. Rəqəmsal və yüksəkkeyfiyyətli yayıma keçilməsi, İP televiziyanın tətbiqi, bütün yaşayış məntəqələrində televiziya yayımının təşkil olunması və sürətli internetə çıxış imkanının yaradılması insanların keyfiyyətli informasiya ilə təmin olunmasına imkan verir. Görülən işlər "Kanal 35" televiziyasını da əhatə etmişdir. 2004-cü ildə ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 35 illiyi münasibətilə yaradılmış televiziya ötən dövrdə mühüm inkişaf mərhələsi keçmişdir.

Ülvi Hüseynli demişdir ki, ötən dövrdə Ali Məclis Sədrinin qayğısı ilə "Kanal 35" televiziyasının fəaliyyəti də xeyli genişlənmiş, efir vaxtı artırılmış, müasir televiziya avadanlıqları qurulmuşdur. Həmçinin televiziyanın yubileyləri qeyd olunmuş, əməkdaşlar mükafatlandırılmışdır. "Kanal 35" televiziyasının 15 illik yubileyinin ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinin qeyd olunduğu gündə keçirilməsi mühüm əhəmiyyət daşıyır və məsuliyyəti daha da artırır. Ona görə də kollektiv fəaliyyətini bundan sonra da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyənləşdirdiyi vəzifələrin icrası istiqamətində qurmalıdır.

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov çıxışında bildirmişdir ki, "Kanal 35" televiziyası 2004-cü ilin 14 iyul tarixində nazirliyin Radio-Televiziya Ötürücü Mərkəzinin nəzdində fəaliyyətə başlamışdır. Ötən dövrdə göstərilən dövlət qayğısı hesabına televiziya müasir avadanlıqlarla təmin olunmuş, kadr potensialı artırılmışdır. İlk yayım dövründən başlayaraq öz fəaliyyətini maarifçilik prinsipləri üzərində quran televiziya muxtar respublika teleməkanında böyük tamaşaçı auditoriyası qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova bildirmişdir ki, "Kanal 35" televiziyasının yaradılması muxtar respublika rəhbərinin ulu öndərin əziz xatirəsinə böyük ehtiramının ifadəsidir.

Qeyd olunmuşdur ki, tamaşaçıların elmi dünyagörüşünü, məlumatlılığını artırmaq, milli-mənəvi dəyərlər aşılayan, yeniyetmə və gənclərdə hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə xidmət edən verilişlərin hazırlanması, əhalinin maarifləndirilməsi "Kanal 35" televiziyasının əsas prinsiplərindəndir. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının televiziya ilə əlaqələri yaradıcılıq əməkdaşlığı şəklində qurulmuş, şura əməkdaşları televiziyanın yaradıcı işinə öz töhfələrini verməyə çalışırlar.

Sonra Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru Elçin Əsədovun, "Naxçıvanın səsi" radiosunun bədii rəhbəri Səriyyə Alməmmədovanın, "Şərq qapısı" qəzetinin şöbə müdiri Səbuhi Həsənovun çıxışları dinlənilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 11 iyul tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında televiziya işi sahəsində səmərəli fəaliyyətlərinə görə "Kanal 35" televiziyasının 4 əməkdaşı "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşdur.

Sonra "Rəşadətli əməyə görə" nişanı əməkdaşlara təqdim edilmişdir.

Təltif olunanlardan Rauf Əliyev əməklərinə verilən yüksək qiymətə və göstərilən etimada görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonda "Kanal 35" televiziyasının fəaliyyətindən bəhs edən filmə baxış olmuşdur.

**"Şərq qapısı"**

# Yarım ilin yekunları müzakirə olunub



Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasından irəli gələn vəzifələr və 2019-cu ilin I yarısında görülmüş işlərlə bağlı Naxçıvan Dövlət Universitetində keçirilən yığıncaqda universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edib.

Bildirilib ki, hesabat dövrü ərzində universitetin Tibb fakültəsinin yeni tədris korpusunun istifadəyə verilməsi bu sahədə tədrisin səviyyəsinin yüksəldilməsinə şərait yaradır. Rektor tədris bazasının daha da möhkəmləndirilməsi məqsədilə yeni fənn kabinələri və laboratoriyalarının qurulması, mövcud olanların zənginləşdirilməsi istiqamətində görülən işlərdən də danışıb.

Qeyd olunub ki, universitet beynəlxalq əlaqələr sahəsində əhəmiyyətli uğurlar qazanıb. Ali təhsil ocağı bir sıra beynəlxalq layihələrin üzvüdür və bu layihələr çərçivəsində bir çox yerli və Avropa universitetləri ilə əməkdaşlıq edir.

Bildirilib ki, hazırda universitetin 12 fakültəsində bakalavr təhsil səviyyəsinin əyani və qiyabi şöbələrində 60 ixtisas üzrə 5336, magistratura təhsil səviyyəsində isə 81 ixtisaslaşma üzrə 326 magistrant və doktorantura səviyyəsi üzrə 165 doktorant və dissertant təhsil alır.

Hesabat dövrü ərzində universitetdə 2 beynəlxalq, 2 respublika səviyyəli elmi-praktik konfrans keçirilib. Bu müddət ərzində universitetin əməkdaşları tərəfindən 15 monoqrafiya, 7 dərslik, 29 dərs vəsaiti, 55 metodik vəsait və fənn proqramı, 78-i xaricdə olmaqla, 573 elmi məqalə, 10-u xaricdə olmaqla, 32 tezis nəşr edilib. Bu ilin altı ayı ərzində universitetin 3 əməkdaşı dosentlik, 1 əməkdaşı isə elmlər doktoru diplomu alıb.

Məruzə ətrafında çıxışlar olub.

* * *



"Naxçıvan" Universitetinin Elmi Şurasının genişləndirilmiş iclasını giriş sözü ilə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev açaraq beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasından irəli gələn vəzifələr və 2019-cu ilin I yarısında görülmüş işlərlə bağlı çıxış edib. Bildirib ki, universitetdə təlimin keyfiyyətinin yüksəldilməsinə, əyaniliyin möhkəmlənməsinə müsbət təsir göstərən texnologiyalardan istifadəyə geniş şərait yaradılıb.

Ali təhsil ocağının beynəlxalq əlaqələrindən danışan rektor vurğulayıb ki, universitet ERASMUS+ layihəsi çərçivəsində ERASMUS +AESOP layihəsinin üzvüdür və bu layihələr çərçivəsində bir çox yerli və Avropa universitetləri ilə əməkdaşlıq edir.

2018-2019-cu tədris ilinin yaz imtahan sessiyasının yekunları barədə universitetin tədris və tərbiyə işləri üzrə prorektoru Hüseyn Bağırsoylunun, 2018-2019-cu tədris ilinin II yarısında pedaqoji təcrübənin yekunu barədə Ümumi tarix kafedrasının müdiri Mehman Şabanovun və 2019-2020-ci tədris ili üçün kafedralarda dərs yükünün təxmini bölgüsü barədə Tədris şöbəsinin müdiri Anar Abuzərlinin çıxışları dinlənilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamı universitet qarşısında yeni vəzifələr – innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, elmi nailiyyətlərin və yeni texnologiyaların sahibkarlıq strukturlarına ötürülməsi, investorlar üçün cəlbedici ola biləcək layihələrin hazırlanması və digər bu kimi vəzifələr müəyyənləşdirir, irəli sürülən məqsədlər ali məktəblərin innovasiyalı inkişafın aktiv subyektlərinə çevrilməsini tələb edir.

2019-cu ilin I yarım ilinin yekunlarına həsr olunmuş müzakirələrdə universitet əməkdaşlarının çıxışları dinlənilib və müvafiq qərar qəbul edilib.

* * *



Naxçıvan Müəllimlər İnstitutunun Elmi Şurasının iclasında da 2019-cu ilin I yarım ilinin yekunları müzakirə olunub. İclasda institutun rektoru, dosent Elbrus İsayev çıxış edərək cari ilin ilk altı ayı ərzində tədris, elmi-metodik, tərbiyə, yenidənhazırlanma və digər sahələrdə həyata keçirilən tədbirlər, əldə olunmuş nailiyyətlər haqqında ətraflı məlumat verib.

Rektor bildirib ki, hesabat dövründə institutda bütün fəaliyyət istiqamətlərini əhatə edən 72 tədbir keçirilib. Ali təhsil ocağının tarixində ilk dəfə olaraq bu tədris ilindən etibarən xarici tələbələrin qəbuluna başlanılıb. İnstitutun hazırlıq kursunda bakalavriat səviyyəsi üzrə 19 tələbə, II kursunda isə 1 xarici vətəndaş təhsil alır. Xarici tələbələr Türkiyə Cümhuriyyəti, Banqladeş və Nigeriya vətəndaşlarıdır.

Qeyd olunub ki, institutda Təsviri incəsənət müəllimliyi ixtisası üzrə bakalavr hazırlığı üçün mövcud tədris planına "Naxçıvan xalçaçılıq məktəbi" adlı seçmə fənn daxil edilib, uyğun fənn proqramı hazırlanaraq çap olunub və 2018-2019-cu tədris ilinin yaz semestrində onun tədrisi uğurla həyata keçirilib. Ali təhsil ocağının elmi dərəcəsi olan əməkdaşları muxtar respublikanın 23 ümumtəhsil məktəbində 189 dərs keçiblər. İnstitut nəzdində "Gələcəyin alimləri" layihəsinə də start verilib, elmi-tədqiqat işləri sahəsində qarşıya qoyulan vəzifələr icra olunub. Hazırda 89 əməkdaş tərəfindən institutun profilinə uyğun elm sahələri və istiqamətləri üzrə Naxçıvan diyarına aid və digər 78 mövzu üzrə tədqiqat işləri aparılır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Müəllimlər İnstitutunun 2019-cu ilə aid planına əsasən I yarım ildə 13 elmi konfrans, o cümlədən 4 respublika və regional səviyyəli konfrans keçirilib. Respublika və regional konfransdan ikisinin materialları ayrıca toplu şəklində nəşr edilib, ikisi isə nəşrə hazırlanır. "Elm aylığı" çərçivəsində 10 müxtəlif tədbir keçirilib. Tələbə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi daim diqqət mərkəzində olub. Ötən il Tələbə Elmi Cəmiyyəti xətti ilə tələbələrin kafedralar üzrə yerinə yetirdikləri mövzuların sayı, ümumilikdə, 143 olub. Mayın 4-də cəmiyyətin XIX yekun konfransı keçirilib.

İnstitutda İnnovasiya laboratoriyası (İnno-Lab) qurulub. Eyni zamanda institutun internet saytında da startap layihələrin qəbulu ilə bağlı "İdeya bankı" yaradılıb.

Rektor bildirib ki, bütün kollektiv qarşıdakı dövrdə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Ali Məclis Sədrinin ali məktəblər qarşısında qoyduğu vəzifələrin icrası istiqamətində səylərini daha da artıracaqdır.

İclasda institut əməkdaşlarının çıxışları olub və müvafiq qərar qəbul edilib.



Babək Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açaraq geniş məruzə edib.

Qeyd olunub ki, hesabat dövrü ərzində rayon Elektrik Şəbəkəsinin yeni inzibati binası və yarımstansiyası istifadəyə verilib, Babək qəsəbəsində smartkarttipli elektrik sayğaclarının quraşdırılması başa çatdırılıb. Gülşənabad kəndində içməli su xətləri yenilənib, Kültəpə kəndində yeni artezian quyusu qazılıb. Hazırda rayon mərkəzində Baytarlıq İdarəsi üçün yeni inzibati binanın tikintisi davam etdirilir. Genişmiqyaslı quruculuq tədbirlərinin davamı kimi haliyədə Kültəpə və Gülşənabad kəndlərində kənd və xidmət mərkəzi, tam orta məktəb binalarının tikintisi və avtomobil yollarının yenidən qurulması, Süni Mayalanma Mərkəzinin tikintisi də davam etdirilir.

"Babək qəsəbəsi və ətraf kəndlərin içməli su, kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində rayonun Babək qəsəbəsi, Nehrəm və Araz kəndlərində içməli su və kanalizasiya xətlərinin, Badaşqan kəndində isə içməli su sistemlərinin çəkilişi və Yarımca kəndində içməli su xətti üçün su anbarının tikintisi aparılır", – deyən icra başçısı bildirib ki, bu dövrdə əhalinin içməli su təminatı sahəsində də müəyyən işlər görülüb. Belə ki, rayonun qəsəbə və kəndlərində müxtəlifölçülü plastik və metal borularda 815 metr məsafədə içməli su xətlərində təmir-bərpa işləri həyata keçirilib, həmçinin 1411 metr yeni içməli su xətti çəkilib.

Bildirilib ki, aqrar sahənin dinamik inkişaf etdirildiyi Babək rayonunda ailə təsərrüfatlarının yaradılması və fəaliyyətinə də xüsusi fikir verilir. Bəhs olunan dövrdə "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə güzəştli şərtlərlə dövlət tərəfindən sahibkarlara 32 texnika və texnoloji avadanlıq lizinq yolu ilə satılıb.

Qeyd olunub ki, cari ilin ötən dövrü ərzində rayonda 10 min 610 hektar sahədə payızlıq taxıl əkini aparılıb və taxıl biçini qısa müddətdə başa çatdırılacaqdır. Həmçinin bu dövrdə 2,8 hektar sahədə yeni yaşıllıq zolağı salınıb, 4 hektar sahədə bərpa işləri aparılmaqla, 6,8 hektar sahədə yaşıllaşdırma tədbirləri görülüb.

Rasim Hüseynov ilin ikinci yarısında qarşıda duran vəzifələrin vaxtında yerinə yetirilməsinin zəruriliyindən də danışıb.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *



Kəngərli Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq məruzə edib.

Qeyd olunub ki, 2019-cu il yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 18 milyon 385 min 400 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri bir il öncəyə nisbətən 1,8 faiz artaraq 17 milyon 418 min 900 manat təşkil edib. Altı ay ərzində Qabıllı kəndində 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası, rayon mərkəzində 48 mənzilli yaşayış binası, Yurdçu kəndi ərazisində 59 hektar sahəni əhatə edən yeni qapalı suvarma şəbəkəsi, Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün 44 mənzilli yeni yaşayış binası, hərbçi ailələri və sakinlər üçün yeni istirahət parkı istifadəyə verilib.

Bildirilib ki, 2019-cu ilin ötən dövrü ərzində rayonda 9 milyon 941 min 600 manat həcmində sənaye məhsulu istehsal olunub. Bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 0,9 faiz çoxdur.

Bəhs olunan dövrdə 5 milyon 114 min 400 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz artım deməkdir.

Vurğulanıb ki, birinci yarım il ərzində yaşıllaşdırma tədbirləri də davam etdirilib, 12 hektar sahədə meşəsalma, 4 hektar sahədə meşəbərpa işləri aparılıb, 5 min 240 ədəd ting salınıb.

Kəngərli rayonunda həyata keçirilən məşğulluq tədbirləri haqqında məlumat verən İcra Hakimiyyətinin başçısı bildirib ki, rayonda 122 işaxtaran vətəndaş qeydə alınıb, 124 nəfər işlə təmin olunub. 1 nəfər ictimai işə, 10 nəfər peşə təlimi kurslarına göndərilib. 1 əmək yarmarkası keçirilib, 36 nəfər işlə təmin olunub.

Diqqətə çatdırılıb ki, rayonun idarə, müəssisə və təşkilatlarında, eyni zamanda qəsəbə və kəndlərdə yoxlamalar keçirilib, aşkar edilən nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görülüb.

Məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin yarımillik yekun iclasını agentliyin direktoru Vüqar Babayev açıb. Bildirib ki, yarım il ərzində agentliyin qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılıb.

Qeyd edilib ki, muxtar respublikaya gətirilmiş 309 kitabdan qadağan edilmiş 73-nün yayılmasının qarşısı alınıb, yararlı olanları isə "Naxçıvan" Universitetinin kitabxanasına verilib və məscidlərə paylanılıb. Bundan başqa, agentlik yarım il ərzində 584 zəvvarın xarici ölkələrdə yerləşən dini ziyarətgahlara gedişinin təşkilinə köməklik göstərib. Eyni zamanda "Naxçıvan" Universitetinin Dinşünaslıq ixtisasının tələbələrinə dərs müddətində məscidlərdə praktik dərslər keçilib.

Naxçıvan şəhər "Sarvanlar" məscidi, Şahbuz məscidi, Şərur məscidi, Ordubad məscidi və Nehrəm kənd məscidində mədrəsələr təşkil olunub və bu mədrəsələrdə 121 nəfər dini təhsil alıb. Hazırda bu mədrəsələrdə 90 tələbə təhsil alır.

Agentlik Ramazan bayramının qeyd olunması və məscidlərdə bayram namazının qılınmasını təşkil edib.

Məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 472